# Türkiyə Cümhuriyyətinin ikinci əsri

**Türkiyə Respublikasının qurulması türk millətinin və bu yolda mübarizə aparan qəhrəmanların misilsiz fədakarlığı hesabına mümkün olub. Birinci Dünya müharibəsindən sonra Osmanlı imperiyasını parçalamaq, xalqın iradəsini əzmək istəyən qüvvələrə qarşı aparılan bu mübarizə Türkiyə Cümhuriyyətinin qurulması ilə başa çatıb. Bu respublika yalnız bir dövlətin yaranışı deyil, həm də müstəqillik və milli suverenlik uğrunda qazanılmış böyük bir zəfərdir.**

101 il bundan əvvəl, 28 oktyabr axşamında Türk xalqının böyük lideri Qazi Mustafa Kamal Atatürk Çankaya köşkündə dövlət rəsmilərini bir araya gətirərək: "Əfəndilər, sabah cümhuriyyəti elan edəcəyik" sözləri ilə mühüm bir qərarı açıqladı. Ertəsi gün, 29 oktyabr 1923-cü ildə Atatürk dolub-daşan parlament binasına qədəm basır. Görüşlərin ardınca məclis kürsüsünə çıxan Atatürk "Suverenlik qeyd-şərtsiz millətə məxsusdur" ifadələri ilə Türkiyə Cümhuriyyətinin yaranışını elan edir.

**(davamı 5-ci səhifədə)**

**(əvvəli 1-ci səhifədə)**

Cümhuriyyətin ilk illəri Türkiyə üçün olduqca çətin və ziddiyyətli keçdi. Yeni dövlət sisteminə qarşı çıxanlar müxtəlif bölgələrdə təxribat və iğtişaşlar törədərək sabitliyi sarsıtmağa çalışırdılar. Xarici qüvvələrin təsiri altında, xüsusən cənub-şərqdə kürd qiyamları və ilk separatçı cəhdlər baş qaldırırdı. Ancaq bütün bu çətinliklərə baxmayaraq, Mustafa Kamal Atatürk Türkiyənin bütövlüyünü təmin etməyi və Cümhuriyyəti möhkəmləndirməyi bacardı. Onun xidmətləri qarşısında 1932-ci ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən ona "Atatürk" - "Türklərin Atası" adı verildi. Mustafa Kamal Atatürk dörd dəfə (1923, 1927, 1931, 1935) prezident seçilərək, ölkəyə qətiyyətlə rəhbərlik etdi. Bu böyük lider 1938-ci il noyabrın 10-da vəfat etsə də, xalqın ürəyində əbədi yaşayır.



# Türkiyə Cümhuriyyətinin ikinci əsri

Ədalət, demokratiya, insan hüquqları və bərabərlik prinsiplərinə sadiq qalan Türkiyə dövləti yarandığı gündən etibarən müasir dünyanın ehtiyaclarına cavab verən hər sahədə sürətlə inkişaf edir. Bu inkişaf yolu Qazi Mustafa Kamal Atatürkün liderliyində atılan ilk addımlardan başlayaraq, sonrakı dövrlərdə bir neçə liderin əzmi ilə davam etdirilib. Ölkənin iqtisadi gücünü artırmaq və sənayeləşməni sürətləndirmək üçün iqtisadi siyasətdə əsaslı dəyişikliklərə imza atılıb. İstehsal və ixracatı gücləndirmək, kənd təsərrüfatını yeniləmək, geniş infrastruktur layihələrinə yönəlmək və yeni sənaye sahələri qurmaq başlıca məqsədlər olub.

Yaşanan intibah və tərəqqi ilə paralel olaraq çətin, məşəqqətli dövrü geridə buraxan qardaş ölkə dünyanın ən qabaqcıl və güclü dövlətlərindən biri olmağı bacarıb. Xüsusilə Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində Türkiyənin ən əhəmiyyətli inkişaf mərhələlərindən birinə şahid oluruq. Bu dövrdə sənaye, səhiyyə, mədəniyyət, nəqliyyat, rabitə, infrastruktur və turizm sahələrində çoxsaylı böyük layihələr həyata keçirilib, bir çox yeni zirvələr fəth olunub. Türkiyə keçdiyi bu yolla daha güclü və parlaq bir gələcəyə doğru addımlamağa davam edir. Bununla yanaşı, qardaş ölkə regional və qlobal proseslərin həllində birbaşa iştirakı ilə daim diqqət mərkəzindədir.

Yeni dünya nizamında baş verən ədalətsizliklərə qarşı qardaş ölkənin qəti və dönməz mövqeyi qlobal miqyasda balansı təmin edir. Xüsusilə Cənubi Qafqazda yeni reallıqların yaranması fonunda Türkiyə dövlətinin çox böyük əməyi var. Hərbi, iqtisadi və siyasi sahədə daim yanımızda olduğunu bildirən qardaş Türkiyə dövləti acımızda, sevincimizdə bizimlə birlikdə yaşayır. "Bir millət, iki dövlət, tək yumruq" devizi ilə daim qlobal məkanda birlik və bərabərlik mesajı verən Azərbaycan və Türkiyə regionun sabitlik və rifah simvoludur.

Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət qardaş Türkiyə olmuşdur. Məhz Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və torpaqlarımızın otuz ilə yaxın davam edən işğalına son qoyulması ilə başa çatan Vətən müharibəsi Azərbaycan-Türkiyə münasibətlərində tamamilə yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi açıq və birmənalı dəstək xalqımıza böyük ruh verdi və eyni zamanda müharibəyə müdaxilə etmək niyyətində olan qüvvələrin qarşısını aldı. Azərbaycan və Türkiyə prezidentlərinin Zəfər paradında etdikləri çıxışlar isə iki xalqın qardaşlıq və həmrəyliyinin sarsılmaz olduğunu dünyaya göstərdi.

2021-ci il iyunun 15-də Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Şuşada "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzaladılar. Bu sənəd iki qardaş ölkə arasında strateji müttəfiqliyin yeni mərhələsini təsbit edir və təhlükəsizlik, müdafiə, iqtisadiyyat, nəqliyyat kimi sahələrdə sıx əməkdaşlığı nəzərdə tutur. Xüsusilə Zəngəzur dəhlizinin açılması və Naxçıvan-Qars dəmir yolunun inşası iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına təkan verəcək.

Prezident İlham Əliyev bu mühüm sənədin əhəmiyyəti haqqında deyib: "İmzalanmış Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bu ad özü hər şeyi deyir: Biz yeni səviyyədə əməkdaşlığa qədəm qoymuşuq və bu Bəyannamə gələcək işbirliyimizin təməl daşıdır".

Azərbaycan və Türkiyə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində ən yüksək dostluq və əməkdaşlıq nümunəsi sərgiləyir. Bu qardaş ölkələr Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP kimi meqalayihələrlə yalnız öz inkişaflarına deyil, böyük bir regionun tərəqqisinə də əhəmiyyətli töhfə verirlər. BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq və regional qurumlarda Azərbaycan və Türkiyə əlaqələndirilmiş fəaliyyət və qarşılıqlı dəstəyi davam etdirərək bölgənin sabitliyi və rifahına xidmət edir. Bu yüksək səviyyəli əməkdaşlıq türkdilli ölkələrin həmrəyliyini və tərəfdaşlığını gücləndirən əsas amillərdən biridir. Prezident İlham Əliyev bu barədə demişdir: "Türkiyə-Azərbaycan əlaqələri, eyni zamanda bütün Türk dünyası üçün də mühüm rol oynayır. Biz Türk dünyasının birləşməsi, türkdilli dövlətlər arasında əlaqələrin inkişafı üçün birgə səylər göstəririk". Bu dərin münasibətlər bölgədə sülh, sabitlik və ümumi rifahı təmin etmək üçün strateji bir yol xəritəsi kimi qəbul edilir. Azərbaycan və Türkiyənin qardaşlığı tarixən olduğu kimi, bu gün də davam edir və gələcəyə inamla irəliləyir.

**Musa BAĞIRLI,**
**"Respublika".**